# ÇILĞIN GÖDƏKCƏ

*(Uşaqlar üçün)*

Bu gün Bratislavada çox yaxşı gün idi. Yaz özünü hiss etdirirdi. Günəşin şəfəqləri Bratislavanın gözlərini yumurdu. Küçələr parıldayırdı. Bu parlaqlığı tıxac pozurdu. Lakin, yenə də, Günəş görünürdü.

Gözəl hava və gün heç də Moloyanın ürəyini açmamışdı. Moloya saat 1-də ayaqlarını hirslə yerə çırparaq, üst-başına və birdə mağazalardakı geyimli-kecimli insanlara rişxənd etmədən , ancaq yenə də həsəd dolu baxışlarla baxırdı. Çox ağlayırdı. Lakin, heç kəs onun ağlamağına məhəl belə qoymur və mərhəmətli söz demirdilər. Hamı ona və onun əynindəki paltarına baxaraq, çox gülürdülər.

Miloya həm də ətrafa çox diqqətsiz idi. Yolu keçəndə onu az qala motosiklet vuracaqdı. Canını çətinliklə də olsa qurtara bildi.

Moloya evinə çatdı. Çantasını təpiklə tulladı, ayaqqabılarını isə yerə vurdu.

Anası Meri qışqırdı:

-Nə olub, Moloya?

-Səninlə danışmaq istəmirəm.

-Mən sənin ananam, bunu unutma, Moloya!

-Siz məni istəmirsiniz!

-Onu sənə kim deyib?

-Siz mənim yaxşı olmağımı istəmirsiniz. Niyə mən yaxşı təhsil ala bilmirəm?

-Nəyə görə?

-Sizin təhsil pulunu ödəməməyiniz mənim təhsilimi davam etdirməyimə imkan vermir. Niyə axı siz, özünüzü müasirləşdirmək, elm, savad almaq üçün pul xərcləmək istəmirsiniz?. Pulunuzu başqa yerə xərcləyirsiniz.

-Moloya, atan sənin təhsil pulunu ödəmək üçün işləyib pul qazanır.

-Onun pul qazanmasını ən yaxşı qumarbaz Mladko bilər. Mladkonun bir günü yoxdu ki, atamı görməsin.

Meri təəccübləndi:

-Sən bunları haradan bilirsən?

-Mladkodan eşitmişəm.

-Sənin qumarxanada nə işin var.

-Məktəbdən çıxanda atamı qumarbazların yanında qumar oynayarkən gördüm. Mladkodan soruşanda isə dedi ki, hər gün saat 6-da burada qumar oynayır. Bu da qazanılan pulların itkisi... Ana, atam təhsil pulumu belə ödəməyə çalışır?

-Sus, qız, sus! Mən də atanın o işlə məşğul olduğunu bilirəm. Bir də ağzını açsan, səni cəzalandıracağam. Atan da eşitsə bu sənin üçün çox pis olar.

-Səncə, atam düz edir, haqlıdır?

-Sənə deyirəm ki, birdə bu barədə danışma. Yoxsa atan səni yaxşıca kötəkləyər və adının Miloya olduğunu belə unudarsan.

-Lənət olsun!Mənə sizin kimi valideynlər lazım deyil! - Bunu ağlaya-ağlaya söyləyən Moloya 2-ci mərtəbədəki otağına qalxdı.

Çox pis vəziyyətdə idi. O qədər ağlayırdı ki... Başını divara vurmaq istəyirdi. O, ağlaya-ağlaya deyirdi:

-Kaş bir sehirli güc məni qoruyardı...

Elə buna bənd imiş... Ağ bir şey Moloyanın gözünü inanılmaz dərəcədə ağrıdandan sonra gözünə bir gödəkcə göründü. Miloya oynamağa, gülməyə başlayır, görünməz gitarası ilə mahnı çalır və oxuyurdu:

Mən Çılğın Gödəkcəyəm!
Sevinclər bəxş edirəm.
Harada qəmlilər var,
Onları güldürərəm.
Mən Çılğın Gödəkcəyəm!
Məni geysən xoş olar.
Mənim bir sehirimlə,
Dünya sevinclə dolar.

Sonra Çığın Gödəkcə Moloyaya səslənib dedi:

-Ey, çılğın qız. Mən Çılğın Gödəkcə, bəs sən?

-Mən... Moloya. Sən nə işlə məşğulsan?

-Mən Çılğın Gödəkcəyəm. Məni geysən, bütün qəmindən azad olacaqsan. Kədərini belə fikirləşməyəcəksən. Mən həm də gülləkeçirməzəm. Məni geysən heç nə sənə təsir etməyəcək.

-Yaxşı, onda səni tez geyinim.

Moloya Çılğın Gödəkcəni geymək istəyirdi ki, onun qumarbaz atası Ferenş qapını qırdı. O, elə bil div idi. Ferenşin köynəyi və şalvarı həddən artıq pis vəziyyətdə idi. Yəqin, qumarda dələduzluq etdiyi üçün onu möhkəmcə əzizşdirmişdilər. O, qızın çiynindən tutdu və div kimi nəhəng səsi ilə:

-Moloya, sən deyəsən həddini aşmısan!Mən indi sənin dərsini verərəm!-dedi və Moloyanı şilləməyə hazırlaşırdı ki...

Moloya -“Anacan!”deyə qışqıraraq yuxusundan ayıldı. Əlini üzünə, başına, pijamasına toxundurdu. Sonra sevincək:

-Anacan, bu bir yuxu imiş! - deyə qışqırdı. Sonra yenidən yatdı.

Moloya həmişə valideynlərindən şikayət edirdi. Bu yuxudan ayıldıqdan sonra o, gördüklərinin yuxu olduğuna ən əsası ailəsi barədə gördüklərinin çin olmadığına görə sevindi və Tanrıya sonsuz şükür etdi. Bir daha ailəsindən və həyatından şikayətlənmədi. O, ailəsinin yaxşıdan yaxşı, əladan əla olduğunu anladı.



***Sevindik NƏSİBOĞLU***
***11.11.2019. saat-14:35***

Kredo 2020.- 13 fevral.- S.14.